# İbtidai siniflərin Azərbaycan dili dərslərində milli-mənəvi dəyərlərdən istifadə təcrübəsindən

**Gülnaz Qudavasova**
*Bakı Qızlar Universiteti*
**E-mail:** quna.veliyeva@gmail.com

**Rəyçilər:** p.ü.e.d., prof. L.N. Qasımova,
p.ü.f.d., dos. F.M. Allahverdiyeva

**Açar sözlər:** dəyərlər, tərbiyə, cəmiyyət, əxlaq, insan, pedaqoq, tarix, dərslik
**Ключевые слова:** ценности, образование, общество, мораль, человек, педагог, история, учебник
**Key words:** values, education, society, morality, human, educator, history, textbook

Mənəvi tərbiyənin insan mənəviyyatının, əxlaqının formalaşmasında vacib rolu vardır. Məhz mənəvi tərbiyə sayəsində bir fərd kimi dünyaya gələn insan böyük bir şəxsiyyətə çevrilir. Təbii ki, genetik keyfiyyətlər, sosial mühit, fitri qabiliyyətlər də burada özünü göstərir.

Hamı tərəfindən ümumi tərbiyənin tərkib hissəsi hesab edilən mənəvi tərbiyə problemi pedaqoji ədəbiyyatda müxtəlif cür mənalandırılır. Məsələn, rus pedaqoqlarından prof. T.A. İlina mənəvi tərbiyənin mahiyyətinin “tərbiyəçilərin tərbiyə olunanlarda mənəvi təsəvvürlərin formalaşdırılması, mənəvi hislərin inkişaf etdirilməsi, həyatda fəaliyyətə rəhbərlik etməyi düzgün qiymətləndirmə və münasibətlərin yaradılması üzrə məqsədyönlü işi” kimi səciyyələndirmişdir.

Azərbaycan pedaqoqlarından professor Ə.Ş.Həşimov və professor F.B.Sadıqova görə, mənəvi tərbiyə dedikdə “adamın özünə, başqalarına (dosta, tanışa, böyüyə, qadına, kişiyə, başqa xalqlara və s.), əməyə, vətənə, ictimai quruluşa, ictimai siyasi qrup və təşkilatlara, dövlətə və s. olan münasibətinin şüurlu surətdə formalaşması nəzərdə tutulur”.

Mənəvi şüurun, dünyagörüşün formalaşmasında milli və bəşəri dəyərlərin də mühüm rolu vardır. Əslində kamil mənəviyyat həmin sözü gedən mənəvi dəyərlər əsasında tərbiyə sayəsində təşəkkül tapıb inkişaf edir. Deməli, yüksək mənəviyyat bəşəri və milli dəyərlərin təcəssümüdür.

Bütün proseslər kimi milli-mənəvi dəyərlərin yaranması və formalaşmasının da özünəməxsus xüsusiyyətləri vardır. Onlar sivilizasiyanın yaranması və formalaşması ilə yanaşı meydana gəlmiş və inkişaf etmişdir. Yer kürəsinin müxtəlif ərzilərində, o cümlədən Azərbaycanda ibtidai insanların mənşəyinə və etiqadına aid aşkar edilən arxeoloji qazıntılar da bunu təsdiq edir. Məsələn, Qarabağ ərazisindəki Azıx mağarasında tapılmış ayı kəllələrindən bəzilərinin üzərində cızılmış işarələr ibtidai insanlarda axirət dünyasına, totemlərə, heyvanlara, təbiət qüvvələrinə inam kimi dini təsəvvürlərin yaranmasından xəbər verir. Zaman keçdikcə bunlar zənginləşib inkişaf etmiş, mənəvi dəyərlər kimi təşəkkül tapmışdır.

Tarixi faktlardan məlum olduğu kimi orta əsrlərdə Azərbaycana çoxlu insan qrupları köç etmişdilər. Qədim dövrdə şimaldan kimmerlər, skiflər, saklar, orta əsrlərdə şərqdən hunlar, cənubdan farslar, ərəblər, Mərkəzi Asiyadan səlcuqlar, oğuz tayfaları, monqol-tatarlar gəlib Azərbaycanda məskunlaşmışdılar. Onlar özləri ilə bərabər öz adət-ənənələrini, mənəvi

dəyərlərini də gətirmişdilər. Aborigenlərin (yerlilərin) adət-ənənələri, mənəvi dəyərləri arasında çulğalaşma baş vermişdi. Konsolidasiya və assimilyasiya prosesi getmişdi. Bu proses türk, aborigen tayfalarının üstünlüyü şəraitində baş vermişdi. Bunun əsasında azəri türklərinin-azərbaycanlıların tarixi adət-ənənələri, mənəvi dəyərləri zəminində daha da zəngin, kamil adət-ənənələr, mənəvi dəyərlər formalaşmışdır. Onlar yüksək əxlaqlılıq, mərdlik, vətənə bağlılıq, azərbaycançılıq, hörmət, sadəlik, təvazökarlıq, sözübütövlük, humanistlik, xeyirxahlıq, insanpərvərlik, fədakarlıq və s. ibarətdir.

Azərbaycan xalqına məxsus mənəvi dəyərləri formalaşma xarakterinə, məzmun və mahiyyətinə görə müxtəlif qruplara bölmək olar: gendən gələn mənəvi dəyərlər, alınıb milliləşdirilmiş mənəvi dəyərlər və ümumbəşəri xarakterli milli-mənəvi dəyərlər.

Gendən gələn milli-mənəvi dəyərlər uşaq hələ ana bətnində olarkən formalaşmağa başlayır və sonradan zaman-zaman kamilləşir. İkinci qrup mənəvi dəyərlər aborigenlərlə gəlmə soyların mənəvi dəyərlərinin çulğalaşması zəminində formalaşan dəyərlərdir. Azərbaycan xalqına məxsus elə mənəvi dəyərlər vardır ki, onlar həm də ümumbəşəri xarakter daşıyır. Bu mənəvi dəyərlər (əxlaqilik, islamçılıq, vətənpərvərlik, humanistlik, igidlik və s.) həm ümumbəşəri, həm də milli-mənəvi dəyərlərdir. Daha doğrusunu desək, milliləşdirilmiş ümumbəşəri mənəvi dəyərlərdir. Onların ancaq bir millətə, o cümlədən təkcə Azərbaycan xalqına məxsus olduğunu demək düzgün deyil.

Mənəvi dəyərlərimizdən olan qürur, vicdan, ləyaqət, şərəf, namus bir-birini tamamlayan və bərabər addımlayan mənəvi anlayışlarımızdandır. Qürur insanı öz mənliyini, ailəsini, elini, vətənini, torpağını və s. qorumağa, ləyaqət isə bütün əxlaqi kateqoriyalara ton verir. Vicdan ləyaqətdə və həyatda mühüm amillərdən biridir. İnsanın daxili aləminə yönəlmiş hakimdir, bir sözlə, vicdan insanın real hərəkətlərinin təşkilatçısı və nəzarətçisidir. İnsanı çəkinməyə, ehtiyat etməyə, düşünməyə vadar edən onun həyasıdır.

Məktəb dərsliklərində milli-mənəvi dəyərlərimiz haqqında ibrətamiz hekayələr, nağıllar, yazıçı və şairlərin əsərləri öz əksini tapmışdır. Belə əsərlər şagirdlərə gözəl insani keyfiyyətləri aşılayır, şagirdləri pis əməllərdən çəkindirir. Təbii ki, bu prosesdə müəllimin də rolu böyükdür. Müəllim dərsliklərdə verilən əsərləri həyatla əlaqələndirməlidir. Şagirdlərə öz yaşıdlarından nümunələr gətirməlidir. O zaman onlar daha çox onlara bənzəməyə çalışacaq, daim yaxşılıq etmək istəyəcəklər. Əslində müəllim də bir obrazdır. Fədakar, öz həyatını şam kimi əridən neçə-neçə müəllimlər var ki, mükəmməl insanlar yetişdirmişlər. Artıq kiçik yaşlarında elə müəllimlər uşaqların idealına çevrilirlər və onlar kimi vətənpərvər, fədakar, yüksək əxlaqi keyfiyyətlərə malik bir insan olurlar.

Milli-mənəvi dəyərlərin aşılanmasında 4-cü sinfin "Ana dili" və 5-ci sinfin ədəbiyyat dərsliklərində verilmiş M.Cəlalın "Bir gəncin manifesti" romanından "İtə ataram yada satmaram" hissəsini nümunə göstərmək olar.

Bir müəllimin bu əsəri uşaqlara nə formada keçdiyinə nəzər salaq. (Naxçıvan şəhəri, 1 saylı orta məktəbin müəllimi M.İsmayılova)

Müəllim: — Əziz uşaqlar bu gün öyrənəcəyiniz "İtə ataram yada satmaram" mövzusu çox təsirlidir. Bu əsər gənclərimizin tərbiyəsində mühüm rol oynayır. Əsər vətənpərvərlik, dəyanət, qeyrət, şərəf, namus və s. mənəvi dəyərləri əks etdirir.

Əsərin baş qəhrəmanı Sona keçmişin bütün çətinliklərini görmüş insanların ümumiləşdirilmiş surətidir. O, oğlunu həbsxanadan çıxartmaq üçün barmaqları ilə ilmə atdığı, tarixinə nişan vurduğu xalçanı satmaq istəyir.

Müəllimə bir qədər məlumat verdikdən sonra ailənin ağır güzəranını şagirdlərə başa salmaq üçün onların diqqətini əsərin bir qədər əvvəlinə yönəldir

— Uşaqlar, mən sizə əsərin bir hissəsi haqqında lent yazısı ilə də məlumat verdim. Onu demək istəyirəm ki, belə acınacaqlı həyata düçar olan ana — Sona övladlarını çətinlikdən qurtarmaq, bir qarın çörək pulu əldə etmək üçün xalçasını satmağa məcbur olur. Amma neçəyə və kimə satacağı haqqında düşünmür. Ananı düşündürən başqa şeydir — övlad qayğısı.

Müəllim sözünə əlavə edərək dedi:

— Uşaqlar, elə bilməyin ki, belə xalçalar yalnız keçmişə aiddir. Azərbaycan qızları indi də öz keçmişini əks etdirən belə qiymətli əsərlər yaradırlar. İndi də onun qiymətli xəzinələrinə vurğunluq özünü çox güclü şəkildə göstərir. Bu əlavələrdən sonra müəllim yenə də əsərə müraciət edir:

... Sona əli ilə xalçanın ucundan tutduğu halda dayananlara baxdı. O, ürəyindəki həsrət və təəssüfün bir çoxlarına təsir etdiyini, onlar üçün də ağır olduğunu sezdi. Tacirə dedi:

— On qızıl!

Kimsə dizinə çırpdı. Bir cavan fəhlənin elə "bay" səsi çıxdı ki, deyərdin oğlanın ürəyinə güllə dəydi. Oğlan ürəyi xarab olduğundanmı, ingilis ilə dalaşmaq istəmədiyindənmi, "Yusif — Züleyxa"nı aparanlara sakit baxa bilməyəcəyindənmi, nədənsə başını aşağı salıb uzaqlaşdı. Gedə-gedə hiddət və kinayə ilə bərkdən dedi:

— Verin, verin aparsın, fəxr eləsin! Qoy onu toxuyanlar quru yerdə qalsın.

... Sona sarı və buz kimi soyuq qızılların bir-bir əlinə toxunduğunu duyurdusa da, amma gözləri camaatda idi.

... Nədən doğma oğlumun dağdan ovladığı ceyran bizə yaraşmadı? Kimdir bunlar? Bu kəlləpaça kimi ütülmüşlər, qızılı törənmiş çapqınçılar kimdir? Haradan basa-basa çapovulçuluğa gəliblər?

Bu suallar Sonanın ürəyində bir sədd kimi durdu, bir nərə kimi səsləndi. Sonanın başında ildırımlar oynadı. Alovlu nərələrini hədəfindən ayırıb uzaqlara atdı.

Sona tutqun üfüqlərdə də gözlərin hiddətini, kainatın incimiş uşaq kimi boğuq simasını gördü. Qayıdıb ovcuna pul sayan ingilisə baxdı. O, sinəsini irəli verib məğrur dayanmışdı.

Ovcuna toxunan pullar Sonanın bütün əsəblərini titrətdi. "Sən nə edirsən, qul zamanından min illər keçib. Bura Misir deyil, Azərbaycandır. Sən Yusif deyilsən, sən Mərdanlar böyüdən Sonasan!".

Sonanı hirs boğdu, üzünü ingilisə tutub dedi:

— Satmıram.

— Azdırsa al, on beş olsun.

— Satmıram

— Bu da iyirmi.

— Yorğan bilib üstümə çəkəcəyəm, ...paltarım yoxdur bürünəcəyəm.

— Bu da yüz qızıl...

— Nə qızıla satıram, nə də ingilisə.

...Sona xalçanı çəkib aradan yığdı və pəhləvan kimi qoltuğuna vurdu.

— Satmıram dedim - vəssalam!

...İti və həyəcanlı nəzərləri ilə həm taciri, həm misteri süzüb əli ilə qəti rədd işarəsi verdi.

— İtə ataram, yada satmaram.

Sona arxasını misterə və tacirə çevirib elə cəld gedirdi ki, deyəsən evdə yağı daşır...

Yüzlərlə vətəndaşın sevinci, alqışlı baxışları o namuslu qızı və qeyrətli ananı yola salırdı:

— Halal olsun!

— Halal olsun, belə qadına!

O nə dayanır, nə dinir, nə də geri baxırdı. Qəlbində qaynayan vətən təəssübü və analıq qüruru ilə başını uca tutub gedirdi.

Müəllim sözünə əlavə edərək dedi:

— Uşaqlar, vətənimizin minlərlə qeyrətli, namuslu, ləyaqətli sonaları vardır. Bizi narahat edən "qonşularımız" bu azəri qızlarının namusunun, qeyrətinin, mətanətliliyinin şahidi olmuşlar. Ermənilər Şuşa işğal olunduqdan sonra muzeyində olan qədim incilər, o cümlədən onun xalçaları dünyanı gəzib. Ona erməni əsəri kimi baxılıb. Azərbaycanlıların qədim xalq mahnısı olan "Sarı gəlin" ermənilərin mahnısı kimi dünyada qələmə verilib. Bizi incidən bunlardır. Bu qeyrət, bu namus, şərəf anlayışlarıdır. Nə yaxşı ki, vətənin qeyrətli övladları öz etiraz səslərini ucalda bildilər. Nə yaxşı ki, dərin və geniş dünyagörüşünə malik vətən övladları öz milli-mənəvi dünyasını ölkələrə, xalqlara göstərə bildilər. Onlar bu el sənətini xalqımızdan uzaq düşməyə qoymadılar.

Beləliklə, xalqımız milli mənəvi dəyərlərimizi, irsimizi bugünkü günə kimə qoruyub saxlaya bilmişdir. Biz də bizdən sonra gələn nəsillərə aşılamalıyıq. Bunu aşılamaq üçün də əlimizdə çox gözəl fürsət var. Məktəblərdə, tədris ocaqlarında şagirdlərdə milli-mənəvi dəyərlərimizə, milli irsimizə hörmət hislərini oyatmalıyıq. Neçə-neçə məğrur sonalar, qeyrətli oğullar yetişdirməliyik.

Bu əsərlə M.Cəlal bir daha sübut etdi ki, Azərbaycanın necə igid, qeyrətli, mərd qadınları vardır. Biz də neçə-neçə elə sonalar yetişdirməliyik ki, xalqımız, Vətənimiz onlarla qürur duysun.

**Məqalənin aktuallığı.** Milli-mənəvi dəyərlər hər dövrümüzdə olduğu kimi günümüzdə də xüsusi önəm kəsb edən bir mövzudur. Çünki bir xalqı, milləti, cəmiyyəti inkişaf etdirən, onu başqa toplumların qarşısında dimdik durmasına kömək edən və ən əsası da dövrü ilə ayaqlaşıb yeni tərəqqi və inqilablara qapı aralayan, tarixin dərinliklərindən süzülüb gəlmiş milli-mənəvi dəyərlərimizdir.

**Məqalənin elmi yeniliyi.** Bəhsi keçən mövzumuz hər dövr üçün bir çox yönləri ilə önəmli və dəyişməz qalır. Müasir kommunikasiya vasitələri və informasiya texnologiyalarından istifadə etməklə ibtidai siniflərdə bu məqalənin mövzusunu vizual olaraq geniş auditoriyalara təbliğ etmək olar.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar faydalana bilərlər.

## Ədəbiyyat


1. Т.А.Илина. Педагогика. М., 1969.
2. Ə.S. Bayramov. Etnik psixologiya məsələləri. Bakı, 1996.
3. M.Paşayev. Bir gəncin manifesti. Bakı, 1980.
4. L.Qasımova. Məktəblilərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi təcrübəsindən. Bakı, 2003.


**Г. Гудавасова**

## Из опыта использования национально-нравственных ценностей в начальных классах на азербайджанском языке

## Резюме

В статье рассматривается использование национально-духовных ценностей в азербайджанских языковых классах начальных классов. Акцент будет играть важную роль в формировании человеческой морали, морали. Показаны способы внедрения национально-нравственных ценностей в начальных классах общеобразовательных школ. В связи с этим приведены примеры работ азербайджанских ученых.

**G. Gudavasova**

## From the experience of using national-moral values in primary school classes in Azerbaijani language

## Summary

The article deals with the use of national and spiritual values in the Azerbaijani language classes of elementary classes. Emphasis will play an important role in the formation of human morality, morality. The ways of introducing national-moral values in elementary classes of secondary general education schools are shown. In this regard, examples of works of Azerbaijani scholars are brought.

**Redaksiyaya daxil olub:** 23.04.2019